# Ermənistanın sentyabr təxribatlarına ordumuzun uyğun cavabı və gənclərimizə örnək...

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

## Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

**Sentyabrın 12-dən 13-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində genişmiqyaslı təxribatı və ordumuzun bu təxribata layiqli cavabı xalq olaraq bizi daha da qürurlandırdı.**

50 igid Vətən oğlunun şücaət göstərərək şəhidlik mərtəbəsinə yüksəlməsi hadisəsi bizi yandırsa da, onların qəhrəmanlığı, örnək vətənpərvərliyi ilə fəxr edirik. Vətənin ağır günlərində onun müdafiəsində ayıq-sayıq dayanan hərbiçilərimiz, əsgər və zabitlərimiz germək bir örnək ünvanıdır. Ermənistanın törətdiyi sərhəd təxribatı zamanı silaha sarılan əsgər və zabitlərimiz düşmənə sözün həqiqi mənasında həddini göstərdi.

Ermənistanın 12-13 sentyabr tarixli təcavüzü zamanı ərazilərimizin müdafiəsində möhkəm dayan, düşmənə qarşı qəhrəmanlıqla döyüşən Ordumuzun misilsiz şücaəti gənclərə böyük bir vətənpərvərlik örnəyidir və gənclərimiz onlardan qəhrəmanlıq dərsləri alırlar.

Ermənistan dövləti əvvəlki dövrdə olduğu kimi bu dəfə də Azərbaycanın əks-hücumu zamanı ağır itkilərlə üzləşdi. Bütün bunlar bir gecədə baş verdi və düşmən ağır zərbə alaraq beli qırılmış ilan kimi, sürünə-sürünə öz yuvasına çəkildi. Qəhrəman, şanlı Azərbaycan ordusu Ali Baş Komandanın rəhbərliyi ilə onlara növbəti dərs verdi.

### "Azərbaycan gənci hər zaman vətənpərvər davranışı ilə nümunə olub"

Müasir İnkişaf Birliyinin sədri, Yeni Media Qrupun rəhbəri Mübariz Göyüşlü "Bakı-Xəbər"ə şərhində bildirdi ki, şanlı Azərbaycan əsgərinin və zabitinin döyüş yolu hər zaman gənc nəsilə böyük örnək olub, son hadisələr zamanı da bir daha örnək oldu. "Azərbaycan gənci hər zaman vətənpərvər davranışı ilə nümunə olub, diqqət çəkib. Azərbaycan gəncinin şücaəti daim Azərbaycanda da, bölgədə də, dünyada da dillər əzbəri olub. İgidlərimizin, oğullarımızın fədakarlığı göz önündədir. Xüsusən də əsgərlərimizin, zabitlərimizin, gizirlərimizin, MAXE-lərimizin hərbi sahədəki qəhrəmanlığı hər zaman təqdir edilib. Dünya belə onların bu şücaətindən heyrətdə qalıb. Mən onları yetişdirən valideynlərin əllərindən öpürəm. Biz xalq olaraq, cəmiyyət olaraq o valideynlərə borcluyuq ki, belə gənclər yetişdirirlər. İstər Birinci, istərsə də İkinci Qarabağ müharibəsində, həm də bu cür təxribatlarda, hərbi toqquşmalarda, Ermənistanın sərhəd xəttində törətdiyi



təcavüz aktlarında, erməni diversiya qruplarının zərərsizləşdirilməsində, silahlı birləşmələrinə qarşı döyüşdə Azərbaycan gəncinin göstərdiyi qeyri-adi qəhrəmanlıqlar, bu yolda şəhidlik zirvəzinə ucalmaları, qazi haqqını qazanmaları bizim qürur ünvanımızdır".

### "12 sentyabr şəhidlərinin hər birinin qəhrəmanlığı gənc nəsilə bir vətənpərvərlik dərsidir"

M.Göyüşlünün sözlərinə görə, gözünü qırpmadan şəhidlik yolunu seçənlər və qazilərimizin səngərdəki hər bir addımı gənc nəsilin vətənpərvərlik və milli mənlik, milli kimlik şüurunun formalaşmasında xüsusi rol oynayır. M.Göyüşlünün bildirdiyinə görə, Azərbaycan gəncliyi o qədər sağlam ruha, sağlam əqidəyə malikdir ki, onu heç bir qüvvə Vətənin müdafiəsi uğurunda şəhid olmaqdan çəkindirə bilmir. Bu oğulların canları, qanları bahasına torpaqlarımızın qorunduğunu deyən M.Göyüşlü hesab edir ki, böyüməkdə olanlar bu əsgərlərdən, zabitlərdən örnək götürür. "Bu şir ürəkli oğullar düşmənə göz dağı verirlər. Hər biri bizim qürur yerimizdir. 12 sentyabr şəhidlərinin hər birinin qəhrəmanlığı gənc nəsilə bir vətənpərvərlik dərsidir.

Bu gün orta və ali məktəblərdə oxuyan, müxtəlif yerlərdə işləyən gənclərimiz hər yerdə öz vətənpərvərliklərini ifadə edirlər. Qəhrəman oğullarımız öyrəndikləri vətənpərvərlik dərslərini döyüş meydanında nümayiş etdirdilər. Həmişə deyrəm, bu gəncliyə çox yüklənmək lazım deyil, bu gənclik qəhrəman gənclikdir. Torpaqlarımızın işğal tarixini bilmir deyib tənqid etmək istədiyimiz, incikliyimizi bildirmək istədiyimiz gənclər o torpaqları öz canları, qanları ilə azad etdilər. Onlar torpaqlarımızı qanları ilə suvardılar. Bundan böyük vətənpərvərlik nə ola bilər? Biz onlara bir ömür borcluyuq. Onlar bizim alnımızdan şərəfsizlik ləkəsini sildilər, bizim başımız aşağı idi, onlar bizim başımızı dikəltdilər. Dövlət, millət və cəmiyyət olaraq onların bizə qoyub getdikləri əmanətlərə, ailələrinə, valideynlərinə, övladlarına, yaxınlarına sahib çıxmalıyıq. Nə etsək onlar üçün azdır. Budur Azərbaycan gənci. Bütün dünya bu vətənpərvərlik örnəyini öyrənməlidir və öyrənəcək də. Azərbaycan gənci qeyri-adi qəhrəmanlıq nümunəsi ilə hərb sənətində bir tarix yazdı. Dünya hərb tarixi elmi bunu illərlə, əsrlərlə, qərinələrlə öyrənəcək. Şuşanı əli yalın azad etmək, o sıldırımları ram etmək Azərbaycan gəncinin gücünü bir daha göstərdi ki, budur Azərbaycan gənci. Bir gecədə gözünü qırpmadan düşməni məhv edənlərdir Azərbaycan gənci. 12 sentyabrda şəhid olan 50 nəfər Azərbaycan oğlu bizim daimi qürur yerimizdir. Azərbaycan Ordusu düşməni xar etməklə bir daha özünün gücünü təsdiqlədi. Bu qəhrəmanlığın qarşısında ancaq baş əymək olar, əsas duruşa keçmək olar. Biz qəhrəman şəhidlərimizlə qürur duyuruq. Onlar gənclərimiz üçün böyük mıktəbdir"-deyə M.Göyüşlü bildirdi.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**